# Kamillik və sənət zirvəsi
# MİKELANCELO

Əgər deyilənlərə inansaq, Mikelancelo bir rəssam, eləcə də bir insan kimi çox qüvvətli şəxsiyyət olub. O, öz tabeçiliyində olan insanlara da sərt münasibət bəsləyib. Həmin insanlar Mikelancelonun əlinin altında 10, 20, hətta 30 il işləyiblər. O vaxtın orta yaş həddi qırx idi. Bu nisbətdə demək olar ki, həmin adamlar bütün ömürlərini Mikelanceloya həsr ediblər.

**_Mikelancelo öz zəmanəsinin məşhur, həm də uğurlu sənətçilərindən biri olub. Onun işləri o qədər yaxşı gedib ki, hətta bir çox sənətçilər məhz onun əlinin altında işləyiblər._**

Hər bir sənət əsəri incilər cərgəsində özünə yer qazanmaq üçün ürəkdən işlənməlidir. Bu sıradan yerinə yetirilən hər hansı bir əsərə görə, hər hansı bir sənətkar – rəssam, ya heykəltəraş dünya şöhrəti qazana bilər. Bu mənada bütün yaradıcılığı boyu bir çox şah əsərlərinə imza atan Mikelancelo sənətkarlar arasında xüsusi yer tuturdu.

Onun tişəsindən çıxan incilər arasında Sikstin kapellasının tavanında çəkdiyi incil süjetləri, Davudun mərmər heykəli, Romadakı müqəddəs Pyotr kilsəsindəki monumental lövhələr diqqətə layiqdir. Bir sənətkar kimi Mikelancelo o qədər qüvvətli və təkraredilməz idi ki, hələ sağlığında onun sənətini ilahiləşdirmişdilər.

Yüz illər boyunca Mikelancelo əzabkeş, tənha həyat sürən bir dahi təsəvvürü yaradıb. Belə deyirlər ki, o, ömrü boyu maliyyə sarıdan sıxıntı çəkib. Əslindəsə, Mikelancelo həyatının çox hissəsini firavan yaşayıb. Əsas məsələ onda idi ki, o necə həyat keçirir-keçirsin, öz sənəti üçün şam kimi alışıb yanmaqdaydı.

Mikelancelonun yaşadığı dövrdə yüzlərlə, bəlkə də minlərlə sənətkar yaşayıb-yaratsa da, nəsillər ötüb keçsə də, bu əvəzolunmaz sənətkarın dünyaya gətirdikləri ölməz sənət inciləri sayılır.

Bu dahinin yaşadığı həyat müxtəlif suallar, müəmmalar ortaya gətirir. Mikelancelo inqilabi bir əyyamda – İntibah dövründə dünyaya gəlib. Elə bir dövrdə ki, qədim dünyanın fəlsəfəsi, xaçpərəst orta əsrlərinin mühafizəkar dəyərləriylə baş-başa gəlirdi. Mikelancelonun sənətinə hər iki fikir dünyası güclü təsir göstərib. Bu münaqişə onun gündəlik şəxsi həyatına, zənginlərlə apardığı mübarizəyə, öz ailə üzvlərinə, ən başlıcası isə özünün şəxsi mürəkkəb hisslərinə bələnmiş həyat yoluna hopmuşdu.

Mikelancelo çox ziddiyyətli bir adam idi. O, bəzən əliaçıq, təkəbbürlü, təvazökar, şöhrətpərəst, bəzən isə ətrafdakılara sonsuz məhəbbət bəsləyən, ya da heç kəsi gözü götürməyən bir insan olurdu. Ətraf mühitdən və insanlardan qeyzlənib cin atına minəndə belə, Mikelancelo öz sənətində təsəlli tapırdı. Bu hisslər onun əsərlərinə daxilən dinamik bir keyfiyyət qazandırır, özünün yüksək sənət ifadəsini tapırdı. Mikelancelonun hər bir əsəri onun daxili mübarizəsindən, gecə-gündüz səngiməyən axtarışlarından soraq verir.

Deyilən ehtiras və çılğınlıq Mikelancelonun bizə çatan portretlərində, onun yaratdıqlarında özünü qabarıq şəkildə büruzə verir. Həmin portretlər və əsərlər, üstündən az qala 500 il keçsə də Mikelancelonun ömrünə bir pəncərə rolunu oynayır.

Mikelancelo Buanarotti elə bir ailədən çıxmışdı ki, əslində o ailədə böyük sənətkar yetişə bilməzdi. Onun nəslində heç kəsin sənətlə yaxınlığı olmayıb. Atası Lüdovik kiçik bir məmur idi, daha doğrusu Florensiya yaxınlığındakı kiçik bir şəhərin meri idi. Mikelancelo elə o vaxt, 1457-ci il martın 6-da dünyaya gəlmişdi. Onun anası haqqındasa məlumat azdır. Anası Françeska cavan yaşlarında ərə getmişdi. Çox vaxt xəstə olardı. Bu azmış kimi hamiləliyinin üçüncü ayında atdan yıxılmışdı. Mikelancelonun sağ qalıb-qalmaması sual altındaydı. Amma Allah onu qorudu və o sağ-salamat dünyaya gəldi. Bir müddət keçəndən sonra Mikelancelonu qardaşıyla birgə dağlarda yerləşən Settinyano kəndinə göndərirlər. Orda onları bir tibb bacısı saxlayır. Settinyano kəndi mərmər qayalarla əhatə olunmuşdu. Bütün Florensiyada istifadə edilən mərmər bu kəndin qayalarından aparılırdı.

Mikelancelo bütün bu illəri sonradan belə xatır-

da özgə bir əvəzolunmaz dahi yaşamaqdaydı. Bu Leonardo da Vinçi idi.

Eyni dövrdə ömür sürsələr də, Mikelancelo və da Vinçi tamamilə bir-birindən fərqlənirdilər. Onların ikisi də çox yaşayıb, ikisi də məşhur «əzabkeş sənətkar» kimi tanınıb.

Belə hesab etmək olar ki, Leonardonun şöhrəti daha geniş, əsərlərinin taleyi isə uğurluydu.

Mikelancelo bunu anlayırdı və hardasa Leonardoya paxıllıq edəyirdi. O, başa düşürdü ki, gücü mərmərdə, heykəldə, tişə sənətindədir. Bununla belə rəngkarlıqda da hamıdan qabağa keçmək istəyirdi. «Sikstin» kapellasını bəzəmək üçün Roma papası Yulius heç kəsi deyil, məhz Mikelancelonu nəzərdə tutmuşdu. Beləliklə, 1508-ci il mayın 10-da müqavilə imzalandı. Nəhəng bir tavanda Mikelancelo düz dörd il rəssamlıq etdi. Belə deyirlər ki, Sikstin kapellasını bəzəyərkən onun 13 köməkçi rəssamı olub. Əlbəttə ki, həmin rəssamlar adi işləri yerinə yetirir, ancaq rəngkarlıqla məşğul olurdular. Əlbəttə, bu sifariş son dərəcə məsuliyyətliydi. Əsər və fiqurlar papa Yuliusun xoşuna gəlməyə də bilərdi. Bir də ki, Mikelancelo rəssamlıqda Leonardonun şöhrətini üstələmək fikrindəydi.

Bu iki dahini bir-birinə yaxınlaşdıran cəhətlərdən biri də bu idi ki, hər ikisi mütəmadi olaraq bir-birinin ünvanına tikanlı sözlər, atmacalar yağdırırdılar. İş o yerə çatmışdı ki, hətta Leonardo heykəltəraşlığı və heykəltəraşları rəssamlıqdan qat-qat aşağı sənət saydı.

Leonardo yazırdı:

«Heykəltəraşlıq sənətdən daha çox bənnalığa yaxındı. Heykəltəraş da, bənna da işləyəndə xeyli tər tökür. Mərmərin tozu heykəltəraşı çörəkçiyə oxşadır. Adətən onların yaşadığı ev daş-kəsək qırıntılarıyla dolu olur.»

Mikelancelo bir dostuna yazdığı məktubda Leonardonun bu sözlərinə münasibətini belə bildirmişdi: «Əziz dostum, rəngkarlığı heykəltəraşlıqdan daha üstün sayan adam nə dediyini heç özü də dərk eləmir. Bütün aləmi qatıb-qarışdırır. Mənim xidmətçim bəlkə də sənət barədə ondan ağıllı mühakimə yürüdərdi.»

1504-cü ildə Florensiya bələdiyyəsi bu qərara gəldi ki, onların yeni salonu iki nəhəng freska ilə bəzənməlidir. Bu iki freska dövrün iki dahisinə, Mikelancelo və Leonardo da Vinçiyə tapşırıldı. Mikelancelo və Leonardo da Vinçi belə bir yarışa çoxdan hazırlaşırdılar. Biri o birisinə üstün gəlmək istəyirdi. Deyilənlərə görə, hər ikisinin freskaları çəkməzdən əvvəl yaratdıqları eskizlər özləri dahiyanə idilər.

Rəssam Benvenuto Çellini öz tərcümeyi-halında belə yazır: «...Dünyada nə qədim, nə də müasir rəssamlardan heç biri belə yüksək səviyyəyə gəlib çata bilməmişdilər. Əsərlərin özləri deyil, hətta layihələr belə bütün dünya sənəti üçün bir məktəb idi.»

Çox təəssüf ki, həmin freskaların heç biri sona qədər çəkilmədi. Leonardo da Vinçi o vaxt tamam yeni rəng tərkibləri axtarırdı. Ona görə də istər-istəməz freskanın üzü həmin rənglərin ucbatından korlandı. Mikelancelo isə daha vacib iş üçün Romaya çağırıldı. Beləliklə, iki nəhəng sənətkarın bu işi sona çatmadı.

Tarixdən məlumdur ki, papa Yulius ölməmişdən qabaq özünə sərdabə tikdirmək fikrinə düşür. Həmin sərdabəni məhz Mikelancelo yonmalıydı. Papa Yulius tarixdə təkcə Vatikanın rəhbəri kimi deyil, həm də ən dahi heykəltəraş Mikelancelonun qurub yaratdığı sərdabənin yiyəsi kimi qalmaq istəyirdi. Mikelancelo 40 fiqurdan ibarət bir abidə kompleksi yaratdı.

1508-ci ildə papa Yulius Mikelanceloya yeni bir sifariş buyurdu: Sikstin kapellasının tavanını bəzəmək!

Bu kapella üzərində işlədiyi müddətdə Mikelancelo hər cəhətdən yorulmuşdu. O bunu belə xatırlayırdı: «Bu tələdə nə qədər əzab çəkdiyimi desəm, inanmazsız. Bəzən onu arzulayırdım ki, kaş sürgündə əlimdə külüng, iri-iri qayaları əzəydim. Həmin sürgün mənim indi gördüyüm işin müqabilində inanın ki, toy-bayram olardı.»

Mikelancelonun həmin dövrdə maliyyə işləri yaxşı deyildi. Atası tez-tez ona məktub yazıb pul istəyirdi. Mikelancelo atasına yazırdı:

«Möhtərəm atam. Mən sizin məktubunuzu aldım və çox məyus oldum. Onu bilin ki, dünyanın hər hansı bir yerində olsam da, mən sizə hər zaman köməklik göstərməyə hazıram. Çox təəssüf ki, Roma papası il ərzində mənə bir quruş da pul verməyib. İşim də nəsə irəli getmir, ona görə də bunun müqabilində pul tələb etməyə haqqım yoxdur. Rəssamlıqla can-dərdi məşğul oluram. Çünki rəng işi mənim əsas peşəm deyil. Ancaq neyləməli, yaşam üçün bəzən əlimi rəngə də bulaşdırıram. Allah




bizim hamımızın dadına çatsın.»

Papa Yulius tez-tez Mikelanceloya baş çəkər, işin ləng getdiyindən gileylənərdi. Bir dəfə hətta hirslənib əlində nə vardısa Mikelancelonun başına vurdu. Mikelancelo günlərlə ac qala bilərdi. Amma bu boyda təhqirə dözə bilməzdi. Ona görə də kapelladan düşüb, kilsədən çıxdı, Romadan tamamilə gedəcəyini söylədi. Hirsi soyuyan Roma papası Mikelancelonun yanına üzrxahlıq üçün adam göndərir. Bundan əlavə 500 dukat da zəhmət haqqı verir. Mikelancelo yenidən işə başlayır.

1512-ci ildə Mikelancelo o əsəri tamamlayır və şəhərə göstərir. Nəticə gözlənildiyindən də artıq idi. Nəhəng tavan 33 dəstədə 300-dən artıq insan fiquru ilə bəzədilmişdi.

Mikelancelo Buanarrotti ömrünün 4 ilini bu şedevrə həsr etmişdi. Zəmanənin ən böyük heykəltəraşı özünü böyük rəngkar kimi də tanıtmış oldu. 37 yaşında müasirləri onu «İlahi Mikelancelo» adlandırırdılar.

Sikstin kapellasındakı nəhəng şedevr ictimaiyyətə təqdim olunandan dörd ay sonra papa II Yulius dünyadan köçdü. Onun ölümü Mikelancelonu həqiqətən sarsıtdı. O, papa Yuliusun sərdabəsində tamamlama işlərini aparmaq üçün çəkic-baltasını əlinə aldı.

1516-cı ildə, dünyada papa Yuliusun sərdabəsi kimi tanınan heykəltəraşlıq şedevri artıq hazır idi. Deyirlər ki, Mikelancelo bu əsər üzərində işləyərkən qəlbindəki ağrı-acını yadından çıxarmaq üçün bəzən öz çəkicini dizinə çırpırmış...

1519-cu ildə Mikelancelo özünün ən azman layihələrindən birini – Lorenso de Mediçi ailəsinin sərdabəsi üzərində işə başladı. Ömrünün düz on beş ilini buna sərf elədi.

Sonrakı illərdə Mikelancelo əvvəlcə qardaşını, sonra isə atasını itirdi. Mikelancelo yazırdı: «Pərvərdigara, sən mənə can-cəsəd, yaşamaq üçün qüvvət vermisən, fəqət indi mənə bu gen dünya dar gəlir. Elə bilirəm, ruhum zindandadır. Doğrudanmı ömrümün sonuna qədər ruhum, qəlbim bu zindandan qurtulmayacaq?»

Bu illər ərzində çəkdiyi iztirablar Mikelancelonu həm bir şəxsiyyət kimi, həm də sənətkar kimi dəyişmiş odlu. Romanın yeni papası III Pavel Sikstin kapellasındakı başqa bir freskanı təzələməyi Mikelanceloya tapşırdı. Fəqət bu illər ərzində Mikelanceloda əvvəlki həvəs, ehtiras xeyli səngimişdi. O, 26 il əvvəlki Mikelancelo deyildi.

Bu freskanı işləyən müddətdə Mikelancelo həyatında özünün ikinci məhəbbətinə – Vittoriya Kolonnaya rast gəldi. Dul zadəgan qadın və İntibah dövrü ziyalılarından biri olan Vittoriya katolik kilsəsində aparılan islahatların tərəfdarı idi. O, Mikelancelonun dini görüşlərinə yaxından təsir göstərdi. Mikelancelo öz çəkdiyi rəsmlərinin bir hissəsini həmin qadına həsr eləyib.

Sikstin kapellasındakı son freskalarında Mikelancelo axirət mövzusuna üz tutur. Artıq 7 ildən sonra başa çatan freska İsa-Məsihin Yerlə-Göylə bağlı təsəvvürləri üzərində qurulub.

Burdakı obrazlar – İsa Məsihdən tutmuş hamısı əzabkeşdir. Bu əsərdə nikbinlikdən, xoşbəxtlikdən, insanı sevindirə biləcək ünsürlərdən əsər-əlamət belə yoxdur. Burada İsa Məsih bəşər övladına nifrinlər yağdıran bir obraz kimi təqdim olunur. Mikelancelonun «Qiyamət günü» təsəvvürünü ortaya gətirən bu freskada heç kəs cəzadan yaxasını qurtara bilməz. Bu əsərdə Mikelancelonun öz obrazı da var. O, həmin adamdır ki, Qiyamət günündə dərisini soyurlar. Bu freska tamaşaçılar arasında o qədər dəhşət yaratdı ki, hətta əsərə ilk dəfə baxan Roma Papası diz üstə çöküb tanrıdan Qiyamət günü özünə mərhəmət diləməyə başladı.

Sonrakı papalar da Mikelancelonun bu freskasına müxtəlif qeydlər söyləyəcək, hətta bəzisi bu freskanı tamamilə divardan sıyırıb atmağı məsləhət görəcəkdi. Mikelancelo son freska ətrafında yaranan söz-söhbətə özünəməxsus tərzdə fikrini bildirəcəkdir. Təzyiqlərə dözməyib Mikelancelodan «bu əsəri abırlı hala salmağı» tələb edən papanın elçisinə dahi sənətkar belə cavab verəcəkdi:

- «Roma papasına deyin ki, onun istədiyi çox xırda məsələdir. Bunu yerinə yetirmək mümkündür. Əgər o bacarırsa, bu şəkli yox, dünyanı düzəltsin.»

Qeyd edək ki, istər son əsəri, istərsə əvvəlkilərin dövrəsində zaman-zaman baş qaldıran mübahisələrə baxmayaraq, Mikelancelo özünün az qala 60 ildən artıq yaradıcılıq dövründə heç kəsdən söz götürməyib.

1546-cı ildə Mikelancelo o dövrdə ən cəsarətli memarlıq layihələrindən birini – Romadakı müqəddəs Pyotr kilsəsini öz boynuna götürdü. Düzdür, Mikelancelo dünyadan köçəndə kilsə hələ yarımçıq qalsa da, mərkəzi hissə onun planı ilə yara-

dılırdı.

Mikelancelo 1564-cü il fevralın 18-də 89 yaşında dünyadan köçəndə özündən sonra heç kəslə müqayisə olunmaz dərəcədə məhsuldar, bənzərsiz bir irs qoyub getdi. Üstündən əsrlər keçəndən sonra belə milyonlarla insan bu gün onun əvəzolunmaz sənət incilərinə baxıb öyünürlər.

Onun sənəti hisslər, təcrübə və xəyallar prizmasından keçib gəlirdi. Həmin əsərlərə Mikelancelo qəlbinin hərarətini, insanlara, dünyaya məhəbbətini bəxş eləyirdi. Odur ki, dünyada zövqlər dəyişsə də, Mikelancelo sənətinə münasibət elə əvvəlki kimi qalmaqdadır.

Dahi sənətkarın şəxsiyyətini, həm də yaradıcılığını onun aşağıdakı sözləri gözəl ifadə edir:

- «İnsan nədir? – Yaşamaq eşqiylə coşan ürək, alovlu ehtiraslara yol göstərən könül, həmin ehtirasları üzə çıxaran istək…

Əgər mən hələ uşaqlıqdan sənət üçün yaranmışamsa, deməli, Allah-təala mənim qəlbimə gözəlliyə biganə qalmamağı, vurğunluğu bəxş eləyib. Bu Tanrının mənə vergisi, əzabı və lütfü idi…»

***Məmmədsəfa Qasımov,***

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti***

## İstifadə olunmuş ədəbiyyat

1. Bazin, Germain, *The Baroque*, New York, Graphic Society, Greenwich, Conn. 1968
2. Bertini, Luciano, *Masaccio*, Pennsylvania State University Press, University Park, 1967
3. Clark, Kenneth, M. *Leonardo da Vinci*, 2d ed., Baltimore, 1967
4. De Tolnay, Charlie, *Michelangelo*, 2d ed., 5 vols. Princeton University press , 1969-71
5. Fisher, Oscar, *Raphael*, Spring Books, London, 1964
6. Андреев А.Н. Культурология. Личность и культура. Минск, 1998
7. Гуревич П.С. Культурология. Учебник. - М.. 1998
8. «Архитектура, изобразительное и декоративно-прикладное искусство с древнейших времён до эпохи Возрождения». Энциклопедия «Аванта +» (т. 7). М, 2000.
9. *Old masters*, edited by Herman J. Wechsler, Pocket Books, Inc., 1949
10. Петрухинцев Н.Н., 20 лекций по истории мировой культуры, издательство Владос, Москва, 2001